*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 iyul 2015-ci il № 52 (1968) Qiyməti 25 qəpik

# Azərbaycan Ordusu düşmən üzərində qələbəyə tam hazırdır

***Dünya birliyi getdikcə bir həqiqəti yaxşı başa düşür ki, Qafqaz kimi vacib bir regionda Azərbaycan özündən qat-qat zəif olan Ermənistana torpaqlarını heç bir halda güzəştə getməyəcək...***

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*"Təmas xəttindəki vəziyyətlə hərbçilər yaxından tanışdırlar. Azərbaycan ictimaiyyəti də bunu bilir. Deyə bilərəm ki, son bir il ərzində Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü əldə edibdir. Keçən ilin yayında Ermənistan təmas xəttində təxribat törətməyə cəhd göstərmişdi. Ancaq bu təxribatın qarşısı layiqincə alındı, düşmən yerinə oturduldu. Bizdə olan məlumata görə, keçən ilin iyul-avqust aylarından bu günə qədər yüzdən çox işğalçı məhv edilib. Bəzi hallarda bizə irad tutulur ki, təmas xəttində gərginlik yaranır, Ermənistan tərəfində çoxsaylı itkilər var. Bizim isə buna cavabımız çox sadədir. Rədd olsunlar bizim torpaqlarımızdan! O zaman münaqişə öz həllini tapar, sülh yarana bilər".*



Birinci Avropa Oyunları ərəfəsində cəmiyyətimizdə işğalçı Ermənistan dövlətinin bu mötəbər yarışa xələl gətirmək üçün cəbhədə təxribatlar törədə biləcəyi ilə bağlı narahatlıq vardı. Amma lap əvvəldən cəbhə xəttində üstünlüyü ələ alan Azərbaycan Ordusu düşmənin təxribatlarına imkan vermədi. Avropa Oyunlarının açılış məşəlinin yandırılmasının torpaqlarımızın müdafiəsində gözünü itirmiş Qarabağ müharibəsi əlili İlham Zəkiyevə etibar edilməsi dünyaya bir mesaj oldu.

İyunun 25-də Silahlı Qüvvələr Günü ilə bağlı Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışında çıxış edən dövlət başçısı İlham Əliyev Ermənistan rəhbərliyinə növbəti dəfə sərt bəyanat verdi: "Bizdə olan məlumatlara görə, keçən ilin iyul-avqust aylarından bu günə qədər yüzdən çox işğalçı məhv edilib. Bəzi hallarda bizə irad tutulur ki, təmas xəttində gərginlik yaranır, Ermənistan tərəfində çoxsaylı itkilər var. Bizim isə buna cavabımız çox sadədir. Rədd olsunlar bizim torpaqlarımızdan! O zaman münaqişə öz həllini tapar, sülh yarana bilər".

Prezident öz çıxışında münaqişənin həllinin uzandığını və dünya güclərinin Qarabağ məsələsində tutduğu gözləmə mövqeyini də sərt tənqid edərək "nə Azərbaycan xalqı, nə də Azərbaycan dövləti heç bir başqa varianta razı ola bilməz. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik", - deyib. Dövlətimizin rəhbəri əlavə edib ki, Azərbaycan Ordusunun arsenalında mövcud olan müasir hərbi texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər. Qeyd edim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov da Avropa Oyunlarından sonra Azərbaycanın Ermənistana gücünü göstərəcəyi ilə bağlı, xüsusilə erməni mətbuatında yayılan məlumatlarla bağlı dərhal sensasion bir bəyanat səsləndirib. Bəyanatı olduğu kimi təqdim edirik: "Düşmən Azərbaycanın Silahlı Qüvvələrində aparılan islahatları görür. Bu yaxınlarda onlar daha böyük işlərə şahidlik edəcəklər. Məhz bu istiqamətdə aparılan uğurlu işlər artıq onlarda qorxu yaradır. Ölümü gözləmək ölümün özündən daha dəhşətlidir. Qoy gözləsinlər, biz sözümüzü deyəcəyik. Xatırladım ki, möhtərəm cənab Prezident deyib ki, əgər erməni əsgər ölmək istəmirsə, onda onun Ağdamda, Füzulidə nə işi var? Mən onlara məsləhət görərdim ki, bundan yararlansınlar. Yoxsa nəticəsi pis olacaq".

Avropa Oyunlarının davam etdiyi günlərdə Ermənistanda ictimai-siyasi sabitliyin pozulması, İrəvanda sosial tələblərlə başlayan mitinqlərin ölkənin əyalətlərinə də yayılması və ən başlıcası, bu etiraz aksiyalarına övladları yad torpaqda - Qarabağ bölgəsində, həmçinin Azərbaycanla digər təmas şəraitində olan ərazilərdə ölən əsgərlərin analarının da qoşulması işğalçı dövlətin hər mənada uçurumun bir addımlığında olduğunu deməyə əsas verir. Həm iqtisadi, həm də hərbi gücünü son illər daha da artıran Azərbaycanın miskin bir ölkəyə çevrilmiş Ermənistanla haqq savaşına başlayacağı getdikcə daha real görünür. Əlbəttə, beynəlxalq güclər Qafqazda müharibənin yenidən alovlanmamasına çalışsalar da, Azərbaycan rəhbərliyi artıq cəmiyyətimizdə müharibə çağırışlarının eşidildiyini, xalqın səbrinin tükəndiyini bəyan edir.

ATƏT-in Minsk Qrupunun həmsədri Ceyms Uorlik İrəvana son səfərində bildirib ki, əgər Qarabağda genişmiqyaslı hərbi əməliyyatlar başlayarsa, münaqişəni dinc yolla həll etmək mümkün olmayacaq. Erməni mətbuatı da Uorlikin bu bəyanatına xüsusi diqqət çəkərək "artıq ATƏT-in Minsk Qrupunun həmsədrləri səviyyəsində genişmiqyaslı münaqişə barədə bəyanat verilir", - deyə narahatlığını ifadə edir. Əslində işğalçı dövlətin media qurumları bəyan etməyə çalışır ki, Uorlik İrəvana son gəlişi ilə Ermənistan hakimiyyətinə gözlənilən fəlakət barədə xəbərdarlıq edib.

Ermənistanın Müdafiə naziri Seyran Ohanyan da bu günlərdə "armenpress"ə verdiyi müsahibəsində ölkəsinin hakim dairələrində yaranan qorxunu dilə gətirib. O deyib ki, Bakıda Avropa Oyunları başa çatdıqdan sonra Qarabağda təmas xəttində vəziyyət kəskin şəkildə gərginləşə bilər. Təkcə həmsədrlər deyil, dünya birliyi də artıq bir həqiqətin fərqindədir ki, Qafqaz kimi vacib bir regionda Azərbaycan özündən qat-qat zəif, iqtisadiyyatı bərbad olan və bütün geosiyasi layihələrdən təcrid edilmiş Ermənistana heç bir halda güzəştə getməyəcəkdir.

Ermənistan hakimiyyəti də ehtiyat edir ki, Avropa Oyunlarına uğurlu ev sahibliyi etmiş və regionda məqsədyönlü siyasət yürüdən Azərbaycan qonşu dövlətin gərgin siyasi vəziyyətindən istifadə edərək... talıqla bəhrələnərək Qarabağda hərbi əməliyyatlara başlaya bilər. Ermənistanda bu narahatlığı yaradan əsas amillər sırasında ordumuzun son aylarda bir-birinin ardınca döyüş şəraitinə maksimum yaxınlaşdırılmış təlimlər keçirdiyini də göstərmək olar. Əslində Azərbaycanın son aylar qardaş Türkiyə ilə intensiv hərbi təlimlər keçirməsi və bu təlimlərdə müasir hərbi texnikasını, möhtəşəm hərbi gücünü nümayiş etdirməsi də düşmənin canına qorxu salıb.

Tanınmış ekspertlər də iddia edirlər ki, Avropa Oyunlarında öz gücünə bir daha əmin olan Azərbaycan yaxın günlərdə fəal hərbi əməliyyatlara başlaya bilər. Mümkündür ki, regionun ən qüdrətli hərbi qüvvəsi olan Azərbaycan Ordusu lap qısa bir vaxtda işğalda olan ərazilərini düşməndən təmizləyə bilər. Dünya birliyi bəyanat verənə kimi Azərbaycan danışıqlarda status-kvonu birmənalı şəkildə öz xeyrinə dəyişəcəkdir.

Humanizm dəyərlərinə əsaslanan Azərbaycan rəhbərliyi, əlbəttə ki, hər zaman ərazi bütövlüyümüzün qan tökülmədən, sülh yolu ilə həllinə tərəfdardır. Yaxşı olmazmı ki, dünya birliyi də məhz bu prizmadan çıxış edərək işğalçı Ermənistana təzyiq göstərsin, onun Azərbaycanın əzəli torpaqlarından çıxmasını israrla tələb etsin. Bu halda yalnız Ermənistanın siyasi dairələrinin əlacı kəsilər və hər cür danışıqlara razılıq verərdi.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Münaqişələrin tezliklə həll olunması üçün səylər birləşdirilməlidir

***Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Bahar Muradova qurumun yay sessiyası çərçivəsində keçirilən müzakirələr zamanı çıxış edərək münaqişələrin tezliklə həll olunması üçün səylərin birləşdirilməsinin, dövlətlərin ərazi bütövlüyünə və suverenliyə hörmət əsasında mehriban qonşuluq münasibətlərinin saxlanmasının vacibliyini bildirib.***

Bahar Muradova qeyd edib ki, artıq münaqişələrin həlli prosesində "danışıqlar üçün rəsmi dəstək" və ya "həllinə ümid etmək kimi" ifadələr çərçivəsindən çıxmaq lazımdır. O vurğulayıb ki, münaqişə zonalarında status-kvonun qəbuledilməzliyi ilə bağlı praktiki addımlar atılmalıdır. Nə qədər gec deyil, ATƏT və onun Parlament Assambleyası hərəkət etməlidir. Münaqişələr nəticəsində öz evlərindən didərgin düşmüş milyonlarla insanın əziyyətlərinin davam etməməsi üçün təcili addımlar atılmalıdır.

Müzakirələr zamanı çıxışında Azərbaycan Prezidentinin azərbaycanlıların İrəvana, Zəngəzura qayıdacaqları ilə bağlı fikirlərini qeyd edən Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Artaşes Geqamyana cavab verən Bahar Muradova deyib: "Cənab Geqamyan. Təşəkkür edirəm ki, bunu qeyd etdiniz. Azərbaycanlılar İrəvan da daxil olmaqla öz tarixi torpaqlarına qayıdacaqlar. Buna əmin ola bilərsiniz".

**AZƏRTAC**

## Ermənistana məxsus pilotsuz uçan aparatların məhv edilməsi Türkiyə mətbuatında geniş işıqlandırılıb

İyulun 4-də cəbhənin Tərtər rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus iki ədəd pilotsuz uçan aparatın (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilməsi Türkiyə mətbuatında geniş işıqlandırılıb.

Qardaş ölkənin Anadolu və CİHAN xəbər agentlikləri, həmçinin "Sabah" və "Hürriyyət" kimi nüfuzlu qəzetləri bu barədə türkdilli oxuculara məlumat verib.

**AZƏRTAC**

## Misir mətbuatı Ermənistana məxsus iki pilotsuz uçan aparatın məhv edilməsi barədə yazır

İyulun 4-də cəbhənin Tərtər rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus iki pilotsuz uçan aparatın (PUA) bölmələrimizin sayıqlığı sayəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilməsi barədə informasiya Misirin Yaxın Şərq Xəbərlər Agentliyi tərəfindən yayılıb.

Həmin informasiya Misirin digər nüfuzlu qəzetlərinin ("Əl-Cumhuriyyə", "Əl-Vətən", "Dustur" və s.) internet saytlarında da yerləşdirib.

**AZƏRTAC**

## "Chatham House" Azərbaycanın suverenliyinə və müstəqilliyinə hörmətlə yanaşdığını bildirir

Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma separatçı rejimin başçısı kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin iştirakı ilə "Chatham House - Kral Beynəlxalq Münasibətlər İnstitutu"nda iyulun 8-də keçirilməsi nəzərdə tutulan tədbirlə bağlı Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən "Chatham House"a etiraz məktubu ünvanlanıb və müvafiq görüş keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Chatham House - Kral Beynəlxalq Münasibətlər İnstitutu"nun rəhbərliyi tərəfindən səfirliyə göndərilmiş cavab məktubunda belə bir görüşün təşkilinin heç bir halda qondarma "Dağlıq Qarabağ Respublikası"nın mövqeyinin təsdiqi və ya tanınması mənası daşımadığı vurğulanır. Bako Saakyanın səfəri ilə əlaqədar Azərbaycanın narahatlığının başa düşüldüyü qeyd olunaraq, "Chatham House"un Azərbaycanın suverenliyinə və müstəqilliyinə hörmətlə yanaşdığı bildirilir.

Məktubda bu görüşün KİV-in iştirakı ilə keçirilən ictimai tədbir xarakteri daşımadığı, yalnız institutun məhdud saylı ekspertlərinin iştirakı ilə "Chatham House qaydaları" əsasında təşkil ediləcəyi qeyd olunaraq heç bir halda separatizm məramlarının təşviqinə xidmət etmədiyi diqqətə çatdırılır. Həmçinin, bu tədbirin məhdud çərçivədə keçiriləcəyi nəzərə alınaraq onun barəsində "Chatham House"un internet saytında verilmiş elanın da çıxarıldığı məktubda qeyd olunur.

*Təlim*

# Artilleriyaçılar çöl-səhra təlimində



***Ordunun gücünü təsdiqləyən əsas amillərdən biri də təlimlərdir. Təlimsiz ordunu təsəvvür etmək mümkün deyil. Qələbə isə güclü, müntəzəm təlimin nəticəsidir. Bu məqsədlə Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində davamlı olaraq döyüş atışlı təlimlər keçirilir.***

Bu günlərdə daha bir hərbi hissədə olarkən polkovnik Elşad Əbilov bildirdi ki, gedəcəyimiz birliyin bölmələri poliqona çıxıblar. Onlar bir neçə gün orada qalacaqlar. Bölmələr artilleriya silahlarından döyüş atışları keçirəcəklər. Çöl-səhra şəraitində şəxsi heyətin təlimə hazırlıqlarını öyrənmək üçün cəmləşmə rayonuna gəldik. Burada bizi Qarabağ müharibəsinin iştirakçısı zabit Telman Sadıqov qarşıladı. O bildirdi ki, müxtəlif yerlərdə heyətlər mövqe tutub, silahların və döyüş texnikalarının maskalanmasını həyata keçirirlər.

- Məqsədimiz ərazidə müdafiəni möhkəmləndirərək düşmənin canlı qüvvəsini və zirehli texnikalarını məhv etməkdir, - dedi zabit. - Qarşıda duran döyüş tapşırığını yerinə yetirmək üçün bizdən tələb olunan tapşırıqları yüksək səviyyədə həyata keçirməyə çalışırıq. İstehkam qurğularının hazırlanması, əraziyə uyğun maskalanması, artilleriya qurğularının və tank əleyhinə idarə olunan raketlərin lazımi yerlərdə yerləşdirilməsi, sərrast hədəflərə atəşi təşkil etmək əsas vəzifələrimizdir.

Döyüş yolu keçmiş zabit artilleriya bölmələrinin düzülüşünə nəzarət edir, tabeliyində olan heyət komandirlərinə gərəkli tapşırıqlar verirdi. O, polkovnik-leytenant Ravil Baxşıyevlə elə yerdə qərarlaşmışdı ki, oradan bütün bölmə və heyətlərin fəaliyyətlərini görmək mümkün idi. Döyüşlərdəki xidmətlərinə görə "İgidliyə görə" medalı ilə təltif olunmuş zabit lazım olan bütün komandaları bölmə komandirlərinə səyyar rabitə vasitəsiylə ötürürdü.

## Döyüş-atışlı təlimlərin sayı artıb

Təlimin rəhbərlərindən biri zabit Ravil Baxşıyevdir. O, artilleriya ixtisası üzrə yüksək bilik və bacarıqlara malik zabitlərdəndir. Ravil 1998-ci ildə indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. İlk dəfə zabit kimi cəbhə bölgəsində hərbi xidmətə başlayıb. Və həmin vaxtdan da düşmənlə təmas xəttində xidmətini davam etdirir. Bir neçə dəfə düşmən təxribatlarının qarşısının alınmasında fəal iştirak edib. Vətənpərvər zabit öz ixtisasını daim təkmilləşdirir və döyüş təcrübəsini artırmağa çalışır.

Bir qədər sonra isə zabit şəxsi heyəti bir yerə toplayaraq silah-sursatla, texnikalarla davranarkən ehtiyatlı olmalarını, istehkam qurğuları hazırlayarkən və maskalanmanı həyata keçirərkən günvurmadan qorunmalarını tapşırdı.

Hava isti olsa da, əsgərlər qarşıda duran tapşırıqları vaxtında başa çatdırmağa çalışırdılar. Zabit R.Baxşıyev bildirdi ki, son vaxtlar təlimlərin sayı artıb. Bu da əsgərlərin döyüş qabiliyyətinin artırılmasına səbəb olub. Bundan öncəki təlimdə topçuların atışda yüksək nəticələr qazandığını bildirən zabitə görə, əsgər öz silahından istifadə qaydalarını mükəmməl bilməlidir. Belə olan halda əsgər hazırlıqlı və əzmli olur.

## Səhra mətbəxi

Qərargahdan bir qədər aralıda dərədə təminat bölməsi qurulub. Burada təlimə cəlb olunan şəxsi heyət üçün səyyar mətbəxdə nahar hazırlanır. Ərzaq xidməti rəisi leytenant Amin Əliyev tabeliyində olan əsgərlərin köməyi ilə çadırda ərzaq anbarı təşkil edib. Şəxsi heyətin sayına uyğun ərzaq norması ayrılaraq aşpaza verilib. Əsgər Elçin Məmmədov səhra şəraitində olmasına baxmayaraq, aşpaz geyimində xörəkləri hazırlayırdı. Əsgər deyir ki, çöl şəraitində yeməklərin hazırlanması üçün menyu tərtib olunub. Ona uyğun ərzaq verilib. 1-ci, 2-ci növ xörəklər və kompot nahar vaxtına hazır olacaq. O yanındakı ocaqçıya tez-tez lazım olan göstərişləri verirdi ki, şəxsi heyətin yeməyi dadlı, keyfiyyətli olsun, həm də nahar gecikməsin.

## Səhra ideoloji guşəsi

Döyüşdə düşmən üzərində qələbəni təmin etmək üçün səhra ideoloji məntəqəsinin rolu böyükdür. Bu sahədə mənəvi-psixoloji hazırlıq üzrə zabitlərin üzərinə məsul vəzifə düşür. Burada yaradılan səhra-ideoloji guşəsində kapitan Bəhruz Qafarovla görüşdüm. Zabit çöl-səhra təlimində ideoloji guşə təşkil etmişdi. Bundan əlavə təlimə cəlb olunan əsgərlər asudə vaxtında bura gəlir, onları maraqlandıran görkəmli hərbi xadimlərin, sərkərdələrin həyatından və onların keçdikləri döyüş yolu ilə bağlı daha dolğun məlumatları əldə edirdilər.

Səhra ideoloji məntəqəsində əsgərlərdən Qalib Alışzadə, Elcan Məhərrəmov və Arif Abbasov təlim öncəsi onları maraqlandıran döyüş sənədləri ilə tanış olurlar. Zabit B.Qafarov onları bu barədə maarifləndirir.

Bundan əlavə televizor, radio, səsgücləndirici və başqa texniki-təbliğat vasitələri də şəxsi heyətin ixtiyarında idi. Təlimin əsas hissəsini döyüş atışı təşkil edir. Atışı uğurla başa vurmaq üçün birlik komandirinin şəxsi heyətə müraciətinin səsgücləndirici vasitəsi ilə yayımı nəzərdə tutulub. Bu da öz növbəsində əsgərləri döyüşə daha da ruhlandırır.



## Top heyəti

Mayor Qalibiyyət Əliyevlə düşərgədə növbəti top heyətinin yanına gəlirəm. Burada bizi kapitan Ayaz Səlimov hərbi qaydada qarşıladı. Əsgərlər topu döyüş vəziyyətinə gətirib onu əraziyə uyğun maskalamışdılar. Zabit qeyd etdi ki, istənilən an "atışa hazır ol" komandası daxil ola bilər. Hər zaman komandanı yüksək səviyyədə icra etməyə hazır olmaq hər bir top heyətinin əsas borcudur.

Zabitlə qısa tanışlıqdan məlum oldu ki, o, işğalda olan Ağdərə rayonunun Orta Güney kəndindəndir. Doğma kənddən çıxanda on iki yaşı olub. Hərbçi olmağa da onu sövq edən səbəb el-obasının düşməndən azad edilməsi üçün hərbi əməliyyatlarda yaxından iştirak etməkdir. Ayaz bu gün çöl-səhra təlimlərində döyüş vərdişlərini artırmaqla yurd yerlərinin tezliklə azad edilməsinə nail olacağına ümidlidir. O bu məqsədə çatmaq üçün bütün imkanlarından istifadə etməyə hazırdır.

Heyət üzvlərinin hər biri vəzifəsinin öhdəsindən layiqincə gəlir. Onlar kiçik çavuş Emin Əlməmmədovun başçılığı altında hər bir tapşırığı layiqincə yerinə yetirirlər. Əsgər İsmayıl Rzayev xidmətə başladığı gündən artilleriya bölməsində olub. İstifadə etdiyi topla bağlı müfəssəl bilik və bacarıqlara malikdir. Heyət üzvlərindən Müşfiq Allahverdiyev, Nicat Ağayev, Nuru Ayxan və Tərlan Məmmədov öz bacarıqları ilə fərqlənirlər. Tuşlayıcı M.Allahverdiyevin ordu sıralarından tərxis olunmasına lap az qalıb. Dəfələrlə bu cür təlimlərdə olub və hər dəfə də yüksək nəticələrlə təlimi başa vurub. Onun doğmalarının yanına qayıtmasına sayılı günlər qalsa da, müharibə başlayarsa, işğalçılara qarşı döyüşə ilk atılanlardan biri olacağını bildirdi.

Hər bir əsgərin başlıca arzusu işğalda olan torpaqlarımızın tezliklə azad edilməsidir. Bu gün keçirilən çöl-səhra təlimləri bir daha onu göstərdi ki, ordumuz güclüdür və istənilən an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistanın iki pilotsuz uçan aparatı məhv edilib

İyulun 4-də cəbhənin Tərtər rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus 2 ədəd pilotsuz uçan aparat (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq açılan atəş nəticəsində məhv edilib.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq iyulun 8-də Füzuli rayonunun Aşağı Veysəlli kəndinin yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Piter Svedberq, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Jiri Aberle keçirəcəklər.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcək

İyulun 8-dən 10-dək Ankara şəhərində (Türkiyə) "ETERNITY-2015" kompüter dəstəkli komanda-qərargah təliminin planlaşdırma konfransı keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***7 iyul 2015-ci il,***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 69 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber, Noyemberyan rayonunun Şavarşavan, Dovex kəndlərində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı, Fərəhli və Kəmərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Ağdam rayonunun Şıxlar, Şuraabad, Sarıcalı, Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Nümunəvi xidmət*

# Ürəyi Vətən eşqi ilə döyünən gizir



***Ön xətdə xidmət edən döyüşçülərlə görüşəndə həmişə eyni hisslər keçirirəm, eyni duyğuların burulğanına düşürəm. Səngərlərdə dayanan hərbçilərin iti baxışlarından cəsurluq, mərdlik və hünər yağır. Hər addımda hiss olunur ki, onlar həmişə ayıq-sayıqdırlar, barmaqları tətikdədir.***

Budur, yenə də ön xətdəyəm. Yol yoldaşım mayor Eldəniz İsmayılovla birlikdə dərin qazılmış səngərlərlə irəli addımlayırıq. Hərdən ayaq saxlayıb yurdumuza keşik çəkən əsgərlərlə görüşüb söhbət edir, xidmət yolları ilə tanış oluram. Hər bir əsgərlə söhbətim yeni yazılacaq bir yazıya, bir reportaja material verir.

Növbəti mövqedə gizir Extiyar Sadıqovla tanış oluruq. Onun həyat yolunu vərəqlədikcə öyrənirəm ki, Lənkəran rayonunun Narbağı kəndində dünyaya göz açıb, Vətənə, yurda bağlı olan bir hərbçidir. Ürəyi Vətən eşqi ilə döyünür. Əsgəri xidmətini başa vurduqdan sonra doğma ordumuzun sıralarında qalıb xidmətini davam etdirmək istəyib. İstəyini raportla komandanlığa bildirib, bacarıqlı və intizamlı olduğu nəzərə alınaraq onun müraciətinə müsbət rəy verilib. Bundan sonra Extiyar müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlayıb. Bir müddətdən sonra isə hərbi biliklərini, döyüş vərdişlərini daha da təkmilləşdirmək üçün hərbi təhsilini gizirlər məktəbində davam etdirib. Kursda fəallığı ilə seçilib, biliklərini daha da artırıb, müasir silahların sirlərinə yiyələnib.

Bu gün gizir Extiyar Sadıqov əldə silah Vətən torpaqlarının keşiyində dayanır. Bir hərbçi, bir vətəndaş kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir.

- Mövqelərimizdə dayanıb düşmən işğalı altında qalan torpaqlarımıza baxanda ürəyimiz ağrıyır, qəlbimiz göynəyir, - deyə gizir Extiyar Sadıqov sözə başladı. - Bu torpaqları azad etmək qarşımızda dayanan ən mühüm, ən müqəddəs vəzifədir. Bu vəzifəni yerinə yetirmək üçün hər an döyüşə, vuruşa hazırıq. Ermənilər atəşkəs rejimini pozmağa çalışanda cəhdlərinin qarşısını qətiyyətlə alırıq. Düşmən qarşımızda duruş gətirə bilmir, hər addımda gücümüzü, qüvvəmizi hiss edib geri çəkilir.

Yenə də mayor Eldəniz İsmayılovla səngər boyu irəli gedirik. Yurdumuzun keşiyində dayanan zabit və əsgərlərlə görüşlərimiz, söhbətlərimiz davam edir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Təlimdə uğur döyüşdə qələbə deməkdir



***Müvəffəqiyyət, təbii ki, çalışqanlıq, təlim meydanında hərbi vərdişləri avtomatizmə qədər cilalamaq, silah və texnikanı mükəmməl öyrənməklə əldə edilir. Bütün bu keyfiyyətlər isə təlim meydanında gecə-gündüz tər tökməklə qazanılır. Əbəs deməyiblər ki, təlimdə nə qədər çox tər tökülərsə, döyüşdə o qədər az qan axıdılar.***

Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş 2015-ci ilin döyüş hazırlığı planına əsasən, iyulun ilk günlərindən ikinci yarımilliyin döyüş hazırlığı tədbirlərinə start verilib. Hazırda bütün hərbi hissələrimizdə döyüş hazırlığı planına uyğun olaraq məşğələ və məşqlər müəyyən ardıcıllıqla aparılır. Mərhələli aparılan məşğələlərdə hər şeydən öncə fərdi hazırlıq dərslərinə başlanıb. Sonra bölmələr heyət, taqım şəklində hazırlıqlarını artıracaqlar. Artilleriyaçılar da bu günlərdə öz ixtisas və taktiki bacarıqlarını artırmaq üçün məşğələlərə cəlb edilirlər.

Hərbi hissəyə gələndə göyün üzü açıq, hava mülayim idi. Necə deyərlər, sərin bir yay səhəri idi. Bu gün hərbi hissənin artilleriyaçıları üçün adi xidmət günlərindən biri idi. Müxtəlif bölmələr yaxınlıqdakı ərazilərdə keçirilən dərsin mövzusuna uyğun məşq edirdilər.

Bəs birinci yarımilliyin tədris dövrü şəxsi heyət üçün nə ilə yadda qaldı?

- Onu qeyd edə bilərəm ki, birinci yarımillik şəxsi heyət üçün olduqca yaddaqalan və uğurlu olub, - zabit Musa Musayev bildirdi. - Döyüş hazırlığı planında nəzərdə tutulmuş bütün tədbirlər hərbi hissə komandanlığı tərəfindən planlaşdırılaraq həyata keçirilib. Artilleriyaçılarımızın döyüş atışlı təlimində topçularımız özlərini yaxşı tərəfdən göstərməyi bacardılar. Bölmələr həm gündüz, həm də gecə təlimi tapşırıqlarını yerinə yetirdilər. Hərbi hissənin təlimdə fəaliyyətinə yuxarı komandanlıq tərəfindən yaxşı qiymət verildi. Bu bütün şəxsi heyəti sevindirib və yeni tədris mövsümündə daha həvəslə xidmət etməyə ruhlandıracaq.

Topçular burada açıq səma altında məşğələyə cəlb ediliblər və birlikdə döyüş hazırlığını artırmağa çalışırlar. Artilleriyaçılar bu məşğələlərdə silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrənir və doldurucululardan tutmuş tuşlayıcılara qədər vahid heyət kimi hərəkət etmə vərdişlərini mənimsəyirlər.



Şəxsi heyətin hazırlığında zabitlərin vətənpərvərliyindən çox şey asılıdır. Onlar tabeliklərində xidmət edən döyüşçüləri də vətənpərvərlik ruhunda tərbiyə edirlər. Doğrudan da, əsgərin nəyə qadir olması ilk növbədə zabitlərin peşəkarlığından, fədakarlığından, həmçinin, mənəvi keyfiyyətlərindən bilavasitə asılıdır.

Hərbi hissənin qazandığı uğurlarda, təbii ki, nümunəvi zabitlərdən mayor Ramiz Eminovu, Xalid Qafarovu, Rahil Dadaşovu göstərmək olar. Yalnız belə savadlı, vətənpərvər zabitlərin yetişdirdiyi əsgərlər döyüş meydanında qələbə qazanmağa qadirdirlər.

Bu gün ordumuzda peşəkarlara önəm verilir və müqavilə ilə xidmətə qəbul edilən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları təlim zamanı döyüş bacarıqlarını nümayiş etdirirlər. Belə hazırlıqlı döyüşçülər topçular arasında da az deyil. Onlardan top komandiri kiçik çavuş Xəzər Bədirovu, sürücü-mexanik Rahil Nəcəfovu qeyd etmək olar.

Hərbi hissənin həyətində məşğələlərdə iştirak edən artilleriyaçıların hərəkətindən hiss olunurdu ki, onlar bu silahın taktiki-texniki xüsusiyyətlərini yaxşı mənimsəyiblər. Heyətin hər bir üzvü - top komandiri, baş tuşlayıcı, çaxmaqçı, doldurucu və mərmiçi öz vəzifələrini bilir və təcrübədə sınaqdan keçirməyi bacarırlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**



# "Vətənimizi təmsil etməkdən qürurluyuq"

## Sülhməramlılarımız Əfqanıstana yola salınıb

İyulun 7-də "N" hərbi hissəsində NATO-nun 2015-ci ilin yanvar ayından Əfqanıstan İslam Respublikasında keçirdiyi yeni "Qətiyyətli Dəstək" adlı qeyri-döyüş missiyasının tərkibində xidmət etmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 39 nəfərdən ibarət qrupunun plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yolasalınma mərasimi keçirilib.

Mərasimdə çıxış edən polkovnik Qədir Nəsibov bildirib ki, sülhməramlılarımız Kabul şəhərində yerləşən Beynəlxalq Hava Limanını qoruyacaqlar. "Dünyanın mürəkkəb münaqişə bölgəsində xidmət etmək nə qədər çətin, məsuliyyətli olsa da, şərəfli və müqəddəsdir. Hər bir sülhməramlı hərbçimiz qarşısına qoyulan vəzifənin məsuliyyətini dərindən başa düşür və yaxşı bilir ki, beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı altında xidmət etməklə Vətənimizi və Silahlı Qüvvələrimizi təmsil edir", - deyən polkovnik sülhməramlı kontingentə xidmətlərində uğur arzulayıb, nizam-intizamlı və bacarıqlı əsgər kimi xidmət etməyi tövsiyə edib.

Sülhməramlılarımız tərkibində Əfqanıstana yola salınan əsgər və zabitlərimizlə söhbət etmək fürsəti tapıram.

Kapitan Fariz Hüseynov artıq 4-cü dəfədir ki, sülhməramlılarımızın tərkibində Əfqanıstana yola düşür. "Hər birimiz yaxşı bilirik ki, biz beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı altında xidmət etməklə Vətənimizi təmsil edirik. Buna görə də sülhməramlı qüvvələr tərkibində xidmət etməkdən qürur hissi keçiririk. Dəfələrlə bu missiyada iştirak etsəm də, yenə də sevincli və qürurluyam".

Növbəti həmsöhbətim sülhməramlı əsgər Mətin Avazlı da öz sevincini bölüşür. "Çox şadam ki, xidmətimi sülhməramlı missiyada davam etdirəcəyəm. Hər birimiz bu məsuliyyətin fərqindəyik. Tək məqsədimiz Vətənimizin adını uca tutmaqdır. Həmçinin, dövlətimizin maraqlarını, mədəniyyətini, tarixini və adət-ənənələrini başqa dövlətlərin nümayəndələri arasında layiqincə təbliğ etmək bizim borcumuzdur.

Xatırladaq ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xalq yazıçısı ilə görüş





***İyulun 6-da Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsində I Avropa Oyunlarının bağlanış mərasimi ilə əlaqədar tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan polkovnik İslam Gəncəliyev ölkəmizdə uğurla baş tutan möhtəşəm idman yarışının xalqımız üçün əhəmiyyətindən danışdı. Zabitə görə, göz oxşayan açılış və bağlanış mərasimi, idman yarışlarının qüsursuz təşkil edilməsi Azərbaycanın adını dünya idman tarixinə qızıl hərflərlə yazdırıb.

Tədbirin gedişində I Avropa oyunlarının açılış və bağlanış mərasimindən videoçarx nümayiş etdirildi.

Sonra söz Azərbaycanın xalq yazıçısı, detektiv əsərlərin yaradıcısı Azərbaycan Yazıçılar Birliyinin katibi, hüquq elmləri doktoru Çingiz Abdullayevə verildi. O bildirdi ki, Azərbaycanın paytaxtı Bakı şəhərinin ev sahibliyi ilə keçirilən I Avropa Oyunları möhtəşəm açılış və bağlanış mərasimi ilə yaddaşlardan silinməyəcək, uzun müddət Azərbaycan xalqı tərəfindən qürurla xatırlanacaq. "Azərbaycan bu Oyunlar zamanı bütün dünyaya öz gücünü nümayiş etdirə bildi. Ölkənin bu yarışlar zamanı əldə etdiyi uğurlar kifayət qədər cəlbedici və əhəmiyyətlidir. Keçirilən I Avropa Oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, "Bakı 2015" I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın, ümumilikdə Azərbaycan xalqının uğurudur ", - deyib xalq yazıçısı.

Yazıçının sözlərinə görə, Birinci Avropa Oyunları dövlətimizin təbliği üçün çox lazımlı tədbir idi: "Bu tədbir, həmçinin, Azərbaycanın bütün dünyada tanıdılması üçün xüsusi önəm kəsb edirdi. Təbii ki, bunu başa düşməyən adamlar nəinki Azərbaycan hakimiyyətini, görünür, heç öz xalqını sevmirlər. Bu gün hamımız şahidiyik ki, Ermənistanda hansı hadisələr cərəyan edir. Ona görə də Birinci Avropa Oyunları ölkəmiz üçün böyük əhəmiyyətə malik idi. Bunu biz hamımız dərk etməli və ölkəmizə dəstək olmalıyıq".

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# "Özümüzü arxa cəbhənin əsgəri hesab edirik"

Müsahibimiz Füzuli Dövlət Dram Teatrının direktoru, əməkdar mədəniyyət işçisi Vaqif Vəliyevdir.

***- Vaqif müəllim, hərbi hissə və birləşmələrdə olarkən zabit və əsgərlərdən sizin rəhbərlik etdiyiniz teatr kollektivinin ünvanına həmişə xoş sözlər eşidirik.***

- Təbiidir ki, belə minnətdarlıq dolu sözləri eşitmək bizim üçün xoşdur. Tez-tez hərbi hissə və birləşmələrə gedərək, zabit və əsgərlər qarşısında maraqlı konsert proqramı ilə çıxış edib onlara mənəvi zövq veririk. Çalışırıq ki, çıxışlarımız onların ürəyincə olsun. Biz özümüzü arxa cəbhənin əsgəri hesab edirik. Bir neçə gün əvvəl "N" hərbi hissəsində olduq. Hərbi hissənin şəxsi heyəti təlim mərkəzində məşğələ keçirdi. Arada yaranmış asudə vaxtdan istifadə edib zabit və əsgərlərimizin təlimlərini də izləyə bildik. Gördüklərimizdən çox məmnun qaldıq. Teatrımızın tarixində ilk dəfə olaraq təmas xəttində, səhra şəraitində şəxsi heyətin qarşısında vətənpərvərlik ruhunda tamaşa nümayiş etdirdik. Kollektivimiz üçün hərbi hissələr doğma və əzizdir. Şəxsi heyətin zövqünü oxşadığımızı hiss edəndə, işimizdən razı qalırıq. Zəhmətimizin hədər getmədiyinə sevinirik. Tamaşa və tədbirlərimiz zamanı yurdumuzun keşiyində dayananların gülümsər çöhrələrini görəndə, alqışlarını eşidəndə, ovqatımız yaxşılaşır. Səhra şəraitində tamaşa nümayiş etdirdikdən sonra komandanlıq bizi əsgərlərlə birlikdə nahara dəvət etdi. Həvəslə əsgər xörəyinin dadına baxdıq. Hazırlanmış çeşidli yeməklər dadlı idi.

Biz hərbi hissə və birləşmələrdə olarkən hiss edirik ki, zabitə, əsgərə böyük diqqət və qayğı var. Bu qayğı əsgərin geyimində, qidalanmasında, hər addımda açıq-aydın hiss olunur. Bu qayğıya cavab olaraq zabit və əsgərlərimiz öz xidmətlərinə məsuliyyətlə yanaşır, ordumuzun daha güclü və qüdrətli olması üçün üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

***- Hərbi hissə və birləşmələrdə olarkən, yəqin ki, aparılan quruculuq işləri də diqqətinizi cəlb edir.***

- Əlbəttə, mən 20 ildən çoxdur ki, ordunun "içindəyəm". Aparılan quruculuq prosesi gözlərimiz qarşısında gedir. Son vaxtlar şahidi olduğumuz sürətli inkişaf və köklü dəyişikliklər bizi çox sevindirir. Hər addımda xalqımızı böyük qələbələrə yaxınlaşdıran quruculuq işlərinin şahidi oluruq. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə həyata keçirilən islahatlar orduya yenilik və dəyişikliklər gətirib. Müntəzəm olaraq keçirilən təlim-məşqlər zabit və əsgərlərimizin döyüş hazırlığını daha da artırır. Ötən ilin iyul və avqust aylarında erməni işğalçıları cəbhə bölgəsində atəşkəs rejimini pozmağa, təxribat törətməyə çalışdılar. Mövqeyində ayıq-sayıq dayanan zabit və əsgərlərimiz erməni təxribatının qarşısını qətiyyətlə aldılar. Düşmənin həyata keçirmək istədiyi təxribat planları baş tutmadı. Qəsbkarlar döyüşçülərimizin igidliyini, hünərini görüb sarsıldılar. Həmin gərgin günlərdə xalq öz ordusuna arxa durdu. Yüzlərlə, minlərlə gənc torpağı qorumaq, hərbçilərə dəstək olmaq üçün döyüşə getməyə hazır olduğunu bildirdi. Avtobuslarla cəbhə bölgələrinə, hərbi hissələrə yollandılar. Ordu öz arxasında xalqı görəndə, daha güclü və məğlubedilməz olur. Sevinirəm ki, bu gün cəmiyyətimizdə hərbçilərə, orduya münasibət, hörmət yüksəkdir. Xalqımız öz hərbçisinə torpağının, yurdunun keşikçisi, xilaskarı kimi baxır. Ordu ilə cəmiyyətin vəhdəti və monolit birliyi yaranıb. Təbii ki, belə də olmalıdır.



***- 1994-cü ilin yanvarında Horadiz qəsəbəsi, eləcə də ətrafdakı kəndlər erməni qəsbkarlarından azad olunanda, burada dəhşətli, ürəkağrıdan mənzərələr gördük. Dağıdılmış, uçurulmuş evlər, yandırılmış sahələr, kəsilib doğranmış ağaclar ürəyimizi dağlayırdı. Hər yer lal sükut içindəydi, sakinlərsiz qalmış qəsəbələrə, kəndlərə baxanda gözlərimizdən yaş axırdı. Yalnız işğaldan yenicə azad olmuş torpağın üzü gülürdü. İndi isə artıq insanların zəhməti və qayğısı sayəsində Horadiz böyük bir şəhərə çevrilib. Gündən-günə öz libasını dəyişir, gözəlləşir. Sakinlər burada əmin-arxayın yaşayırlar. Buna hamımız sevinirik. Sizin teatrın yerləşdiyi bina da şəhərə bir cür gözəllik verir. Ötən gərgin günləri xatırlayırsınızmı?***

- Horadiz uğrunda döyüş Azərbaycan Ordusunun ən uğurlu, ən yaddaqalan əməliyyatlarından biridir. O gərgin və ağrı-acılı günləri biz tez-tez xatırlayırıq. Bu qanlı döyüşlərdə itkilər olsa da, zabit və əsgərlərimiz qollarının gücünü, döyüş bacarığını, hərbi qüdrətini düşmənə göstərərək onu ağır məğlubiyyətə uğratdı, Füzuli rayonunun işğal olunmuş ərazilərinin xeyli hissəsini azad etdilər. Ermənilər müvəqqəti ələ keçirdikləri kənd və qəsəbələrin hər tərəfini viran qoymuşdular. Uçurulmamış, dağıdılmamış, yandırılmamış bir ev qalmamışdı. Hər yer yaralanmışdı, hər yer zədələnmişdi, hər yer qan ağlayırdı. Hər daşda, hər qayada erməni vəhşiliyinin, erməni qəddarlığının qanlı izləri var idi. Doğma yurdlarına qayıdan insanlar dövlətin dəstəyi ilə qollarını çırmayıb abadlıq və bərpa işlərinə başladılar. Az müddət ərzində böyük işlər görüldü. Bir vaxtlar ermənilərin dağıdıb yandırdığı Horadiz qəsəbəsinin yerində indi gözəl bir şəhər yüksəlir. Cəbhə xətti yaxın olsa da, insanlar ordumuzun gücünə, qüdrətinə güvənib rahat yaşayırlar. Yaxşı bilirlər ki, zabit və əsgərlərimiz həmişə mövqelərində ayıq-sayıq dayanır, torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar.

***- Vaqif müəllim, söhbətimizin sonunda gələcək planlarınızdan da xəbər tutmaq yaxşı olardı.***

- İşlərimiz çoxdur, planlarımız genişdir. Gələcəyə böyük ümidlərlə baxırıq. Amma bütün planlarımızın zirvəsində Azərbaycan əsgəri ilə görüşlər dayanır. Əvvəlki illərdə olduğu kimi, yenə də bizi hərbi hissə və birləşmələrdə hərbçilərlə maraqlı görüşlər gözləyir.

***- Yəqin zabit və əsgərlərə də deməyə sözünüz var.***

- Yurdumuzu qoruyan hərbçilərə xidmətlərində uğurlar arzulayıram. Xalqımız bu gün torpaqlarımızı qorumağı onlara tapşırıb. İnanıram ki, səngərlərdə doğma yurdumuza keşik çəkən zabit və əsgərlərimiz yaxın vaxtlarda xalqımızı Qələbə müjdəsi ilə sevindirəcəklər.

***- Müsahibəyə görə çox sağ olun.***

**Söhbəti yazdı:**
**mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Vətən naminə!..



Hərbi xidmətə kişilik məktəbi deyirlər...

Hərbi xidmət əsl Vətən dərsi keçilən vətənpərvərlik məktəbidir.

Uşaqlığımızda da, yeniyetməliyimizdə də ata-anamız, nənə-babalarımız bizə "Vətəni sevin" deyərdilər. Məktəbdə müəllimlərimiz də Vətəni sevməyin nə dərəcədə gərəkli olduğunu xatırladardılar.

Orta təhsilimi başa vuran kimi universitetə daxil ola bilmədim. Atamın bir sözünü xatırladım: "Yaxşı oğul hər yerdə özünü göstərə bilər". Bu sözlər ürəyimə təpər verdi...

Hərbi xidmətə həvəslə yola düşdüm. Nə danım, xidmətimin ilk aylarında müəyyən çətinliklərim olurdu. Məndən əvvəl xidmət edən əsgər yoldaşlarımın, komandirlərimin məsləhətləri, qayğısı köməyimə çatdı. Hərbi xidmətin sirlərinə yiyələnməyə başladım. Çox keçmədi ki, mən də xidmətdə fərqlənməyə başladım. Atamın dediklərinin həqiqət olduğuna bir daha inandım.

Hərbi xidmət əsgərin dözümünü artırır, onun Vətən sevgisini dərinləşdirir. Bir vaxtlar ata-anamızdan, müəllimlərimizdən öyrəndiklərimiz köməyimizə çatır. Döyüş növbəsində olanda Vətənə nə dərəcədə lazım olduğunu hiss edirsən. Etiraf edirəm ki, Vətən kəlməsinin ifadə elədiyi məzmunu onda daha əhatəli, daha incəliklə dərk edirdim...

2014-cü ildə - hərbi xidmətdən sonra mülki həyata qayıtdım. Səngərləri, döyüş növbəsini, bir sözlə, hərbi həyatı unuda bilmirdim. Ona görə də yenidən orduya qayıtmağı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmağı qərara aldım. Müraciətimə razılıq alanda çox sevindim. Hazırda hərbi qulluqçular sırasındayam. Yenə Vətəni qoruyanlarla çiyin-çiyinə vətəndaşlıq borcumu yerinə yetirirəm. Düşmənlə təmas xəttində xidmət eləməyin məsuliyyətini mən də yaxşı başa düşürəm. Bu, bilavasitə Vətənin təhlükəsizliyi deməkdir...

Mən hərbçi olmağımla qürur duyuram. Əslən Beyləqandanam. Məni tanıyanlara demək istəyirəm ki, onlara da, əzizlərimə də həmişə başucalığı gətirəcəyəm. Vətən naminə!..

**Əsgər**
**Emin FƏRZƏLİZADƏ,**
**"N" hərbi hissəsi**

*Gənc əsgərlərin hazırlığı*

# "Məqsədimizə nail oluruq"

***<u>Hərbi hissənin geniş meydanında əsgərlər sıra hazırlığı məşğələsi keçirdilər. Şəxsi heyət meydan boyu addımlayır, cəld hərəkətlərlə gah sağa, gah sola, gah da geriyə dönürdülər. Əsgərlərin eyni ritmlə səslənən addım səsləri dalğa-dalğa ətrafda əks-səda verirdi. Onlar yaxşı başa düşürlər ki, bu inamlı addımlar uğurlu sabahlara aparan yolun başlanğıcıdır. Bu inam əsgərlərin qəlbinə ürəklərindən süzülüb gəlirdi. Onların gülümsər çöhrələrindən cəsarət, hünər və rəşadət oxunurdu.</u>***



Məşğələdə fasilə yaranan kimi əsgərlərə hazırlıq keçən komandirə yaxınlaşıb tanış oldum. Öyrəndim ki, zabit Kənan Həziyev ön xətdə yerləşən hərbi hissəyə ötən il gəlib.

- Bu gün cəbhə bölgəsində xidmət edən zabit və əsgərlərin üzərinə böyük məsuliyyət düşür, - deyir zabit Həziyev. - Ən başlıca vəzifəmiz erməni qəsbkarlarının işğalında olan torpaqlarımızı azad etməkdir. Biz bu müqəddəs və şərəfli vəzifəni yerinə yetirməyə hər an hazırıq. Şəxsi heyətin həm mənəvi-psixoloji, həm də döyüş hazırlığı yüksək səviyyədədir. Xidmətdə qazandığı uğurlarla kifayətlənməyən əsgərlərimiz dərs və məşğələlərdə fəal iştirak edir, daim hazırlıqlarını artırırlar. Yaxşı deyiblər ki, sıra hazırlığı hərbi xidmətin "əlifbası"dır. Əgər xidmətə yenicə başlayan əsgər bu "əlifbanı" mükəmməl mənimsəyərsə, həmişə xidmətində uğurlar qazanacaq. Biz çalışırıq ki, təkcə sıra hazırlığı deyil, başqa bilik və vərdişləri də əsgərlərə mükəmməl şəkildə aşılayaq.

Məşğələdə fəal iştirak edən əsgərlərdən Pərvin Məmmədov, Vüsal Vəlizadə, Elçin Həsənli, Orxan Quluzadə, Kənan Cəfərov, Bəxtiyar Dəmirli, İsmayıl Rəhimov, Əmirxan Əmirli və başqaları bildirdilər ki, Vətənə övladlıq borclarını şərəf və ləyaqətlə yerinə yetirəcəklər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### UNESCO-nun "Dünya irsi siyahısı"na yeni obyektlər əlavə olunub

UNESCO dünya irsi obyektlərinin siyahısını genişləndirib. Siyahıya Şpayxerştadt anbar kompleksi və Hamburqdakı Kontorhausfirtel kontor məhəlləsi, Sinqapur Botanika bağı, Fransanın Şampan və Burqundiya regionları, İranın Suzı və Meymand şəhərləri, Danimarkada parfors ovu yerləri və ölkənin cənubunda Kristiansfell qəsəbəsi daxil edilib. Təşkilat, həmçinin Çinin Tusı hökmdarlarının memarlıq kompleksini, Cənubi Koreyada Pekçe sülaləsi kompleksini, Monqolustanda Burxan-Xaldun dağını və Türkiyədəki Diyarbəkir qalasını da bu siyahıya daxil edib.

Ümumiyyətlə, UNESCO-nun "Dünya mədəni və təbii irsi siyahısı"nda 1000-dən çox obyekt var. Onlardan 40-ı Almaniyada yerləşir.

### Yunanıstanın kreditorlara "yox" cavabı və avrozona liderlərinin təcili sammiti



İyulun 5-də keçirilən referendumda yunanıstanlı seçicilərin 61 faizi "hökumət beynəlxalq kreditorların təklifləri ilə razılaşmalıdırmı?" sualına "yox" cavabı verib. Beləliklə, yeni borcların müqabilində tələb olunan sərt iqtisadi tədbirlər və büdcə qənaəti tələbləri rədd edilib.

Vətəndaşları "yox" deməyə səsləyən Baş nazir Aleksis Tsipras göstərdikləri etimada görə onlara təşəkkürünü bildirib. Onun sözlərinə görə, yunanların "cəsur seçimi" kreditorlarla danışıqlarda Afinanın mövqeyini xeyli gücləndirib.

Hadisə ilə bağlı Avropa Parlamentinin spikeri Martin Şultsun və Avropa Komissiyasının mətbuat xidmətinin ilk rəsmi reaksiyaları isə soyuqqanlı olub. "Yunanların seçiminə hörmətlə yanaşmaq lazımdır. Lakin avrozonanın digər ölkələrinin bu məsələyə dair fikirləri də fərqlidir", - deyə Şults bildirib.

### Türkiyənin idman avtomobili ilk dəfə seriya şəklində istehsal olunacaq



"Sazan" adlı idman avtomobilinin eskizlərini çəkən və 1996-cı ildə avtomobil qəzasında həlak olan Kaan Onukun xəyalı gerçəyə çevrilir. Türkiyənin Tuzla şəhərindəki bir tərsanədə Kaanın atası Əkbər Onuk tərəfindən ərsəyə gətirilən, tamamilə türk istehsalı olan "S 56" (SAZAN) idman avtomobili Türkiyə tarixində ilk dəfə seriya şəklində istehsal olunacaq.

AZƏRTAC Türkiyə mətbuatına istinadən xəbər verir ki, "S 56" idman avtomobili 2015-ci ilin mayında hazırlanıb. Oğlunun xatirəsini əbədiləşdirmək istəyən Əkbər Onuk avtomobili seriya şəkildə istehsal etmək üçün "Ford Otosan" şirkəti ilə razılığa gəlib. Şirkət Türkiyə bazarı üçün 30, ABŞ bazarı üçün isə 20 ədəd "S 56" idman avtomobili istehsal edəcək.

### "Mastercard" onlayn alış-veriş üçün üztanıma proqramını istifadəyə verəcək

"Mastercard" onlayn alış-veriş etmək üçün kart sahiblərinin üzünü tanıyan yeni proqramının testini keçirib.

Testdə iştirak edən istifadəçilər mobil telefonlarını üzlərinə tuturlar, kart sahibi proqram tərəfindən tanınır və beləliklə, müştərilər internetdən aldıqları məhsulun pulunu ödədiklərini təsdiqləmiş olurlar. Üz tanıma proqramı "SecureCode"a alternativ olaraq yaradılıb. Qeyd edək ki, "SecureCode" internetdən alış-veriş edənlərə pul ödənişini təsdiqləmək üçün şifrə istəyir.

Mütəxəssislər bildiriblər ki, selfi çəkməyi sevənlər bu proqrama daha çox üstünlük verəcəklər.

### Rusiyanın Vorkuta şəhərinə gözlənilmədən qar yağıb



Rusiyanın Komi Respublikasının şimalında yerləşən Vorkuta şəhərinə gözlənilmədən qar yağıb. Havalar o qədər soyuyub ki, iyulun 6-dan şəhərdə binaları qızdırmaq üçün qazanxanaların işə salınacağı bildirilir. Hazırda şəhərdə temperatur 1-3 dərəcə arasında dəyişir.

Sinoptiklərin dediyinə görə, soyuq hava iyulun 10-a kimi davam edəcək. Vorkuta qütb dairəsində yerləşir. Əhalisinin sayına görə, qütb zonasının üçüncü şəhəridir. Şəhərdə 60 mindən çox adam yaşayır. Vorkuta 1930-cu ildə salınıb və buna səbəb ərazidə iri daş kömür yataqlarının ortaya çıxması olub.

### Yerevanda etirazçılar "Bir addım irəli" aksiyasına başlaya bilər



Elektrik enerjisi tariflərinin qaldırılması haqqında qərarın ləğv edilməsi tələbilə Yerevanın mərkəzində küçəni bağlayıb oturaq tətil keçirən etirazçılar tələblərinin yerinə yetirilməsi üçün hakimiyyətə iki gün vaxt veriblər. Etiraz aksiyasının koordinasiya qrupu üzvlərindən David Sanasaryan aksiyanın "həlledici mərhələyə" keçdiyini elan edib.

"Biz Milli Məclis, Konstitusiya Məhkəməsi və prezident iqamətgahı yerləşən bu siyasi prospekti açmaq niyyətində deyilik. Hakimiyyət tələblərimizi yerinə yetirməsə, bazar ertəsindən "Bir addım irəli" aksiyasına başlayaraq, hər axşam saat 9-da barrikadamızı irəli aparacağıq", - deyə Sanasaryan bəyan edib. Etirazçıların elektrik enerjisi tariflərinin təxminən 16 faiz qaldırılması haqqında qərarın ləğv edilməsini, iyunun 23-də nümayişi dağıdarkən etiraz iştirakçıları və jurnalistlərə qarşı zorakılıq tətbiq edənlərin, onlara əmr verənlərin cəzalandırılmasını və mövcud elektrik enerjisi tariflərinin endirilməsi məsələsinin nəzərdən keçirilməsini tələb edirlər.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Qələbə ruhlu mahnılar

## “Vətən uğrunda” hərbi vətənpərvərlik mahnı müsabiqəsinə yekun vurulub



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar Təşkilatının və Gəncə Qarnizonu Zabitlər Evinin birgə təşkilatçılığı ilə Silahlı Qüvvələrin yaradılmasının 97-ci il dönümünə həsr olunmuş "Vətən uğrunda" hərbi vətənpərvərlik mahnı müsabiqəsinin qala konserti üçüncü ordu birliyinin əsgər klubunda keçirildi. Öncə mahnı müsabiqəsinin keçirilməsi qaydaları, iştirakçılar haqqında videoçarx nümayiş etdirildi.***

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar Təşkilatının sədri Abiyət Dadaşova çıxış edərək bildirdi ki, müsabiqənin keçirilməsində əsas məqsəd əsgər və zabitlərimizin vətənpərvərlik ruhunun yüksəldilməsi, milli mədəniyyətimizin, musiqimizin təbliği, yeniyetmə və gənclərdə hərbi həyata diqqət və marağın artırılması olmuşdur. Müsabiqə bütün cəbhə bölgələrini əhatə etmişdir. Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Daşkəsən, Tərtər, Beyləqan, Füzuli rayonlarında hərbi qulluqçular və gənclər müsabiqədə fəal iştirak etmişlər. Yeniyetmə və gənclər ordu həyatı ilə yaxından tanış olmuşlar. Keçirilən müsabiqə bir daha göstərdi ki, Vətən müdafiəçilərinin və gənclərimizin vətənpərvərlik ruhu, döyüş əzmi yüksəkdir.



Seçim turlarında daha çox fərqlənən müsabiqə finalçıları Samir Hüseynov, Sabir Əliyev, Rəşad İsmayıl, Abdulla Mədinov səhnəyə dəvət olundular. Onların oxuduqları mahnılar alqışlarla qarşılandı. Münsiflər heyətinin qərarına əsasən, Sabir Əliyev və Rəşad İsmayıl birinci yerə, Sabir Hüseynov ikinci, Abdulla Mədinov isə üçüncü yerə layiq görüldülər.



Xalq artisti Azərin də öz çıxışında bir daha diqqətə çatdırdı ki, vətənpərvərlik ruhunun yüksəldilməsində mədəni-kütləvi tədbirlərin keçirilməsi çox önəmlidir. Bu sahəyə ölkə rəhbərliyi və Müdafiə Nazirliyi tərəfindən böyük diqqət göstərilir. Mahnı müsabiqəsi də belə tədbirlərdən biridir. İstər hərbi qulluqçular, istərsə də gənclər seçim turlarında fəal iştirak etmişlər. Ən böyük istəyimiz belə möhtəşəm tədbirlərin tezliklə Vətənimizin hər bir güşəsində - Xankəndidə, Şuşada, Ağdamda, Laçında, Qubadlıda, Kəlbəcərdə və işğal olunmuş başqa bölgələrimizdə keçirilməsidir. Xalq artisti sonra qələbəyə səsləyən mahnılar ifa etdi.

Polkovnik Elşad Əbilov ölkəmizin iqtisadi qüdrətinin artmasını və dünyada bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etməsini diqqətə çatdırdı. Bildirdi ki, ölkəmizin tarixində mühüm hadisə olan Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də dövlətimizin gündən-günə artan nüfuzunu, qüdrətini göstərdi. “Şəxsi heyətimiz bundan sonra da qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirəcək, hərbi vətənpərvərlik ruhunun daha da yüksəldilməsi üçün məqsədyönlü tədbirləri davam etdirəcəkdir. Bu gün iştirakçısı olduğumuz mahnı müsabiqəsi də hərbi qulluqçularımızın və gənclərin Vətənə, xalqa sədaqət hisslərini bir daha nümayiş etdirdi”.

Müsabiqə qaliblərinə qiymətli hədiyyələr, fəxri fərmanlar və pul mükafatı təqdim olundu.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# “Övladlarınızdan nigaran qalmayın...”

***Ana - müqəddəs varlıq, əvəzedilməz insandır. Gecələri hər kəsdən sonra yatar, səhər isə hamıdan tez oyanar. Kibrit çəkib ocağını yandırar. Allahın verdiyi nemətlərdən süfrəyə düzər. Uşaqlar çaydanın səsinə, qaşıq cingiltisinə oyanar. Bəzilərini isə nəvazişlə oyadar. Nəhayət, açılar mürgülü gözlər...***

İllərcə övlad böyüyər və Vətənə borcunu ödəmək üçün hərbi xidmətə yollanar. Anaları düşündürən suallar yaranar. Görəsən balam nə edir? Nə yedi? Ac qalmadı?

Bütün bu sualları düşünən analarımızın rahatlığını təmin etmək üçün "N" hərbi hissəsində əsgər yeməkxanasına baş çəkdik. Müasir standartlara cavab verən yeməkxana hərbi qulluqçularımızın istifadəsindədir.

Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğının nəticəsi olaraq orduda əsaslı dəyişikliklər aparılır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun apardığı islahatların nəticəsi olaraq hərbi qulluqçuların ərzaq təminatı daha da yaxşılaşdı.



Artıq xeyli müddətdir ki, hərbi hissələrdə milli yeməklər əsgərlərin qida rasionuna daxil edilib. Həyata keçirilən ən mühüm tədbir isə general-polkovnik Zakir Həsənovun əmri ilə yeməklərin hazırlanması prosesinə peşəkar mülki şəxslərin, qadınların cəlb olunmasından ibarətdir. Bu, əlbəttə ki, yeməklərin daha dadlı, keyfiyyətli olması deməkdir. Əvvəllər yeməklərin bişirilməsi ilə əsgərlərin arasından seçilmiş aşpazlar məşğul olurdu. Yəqin ki, hamı razılaşar ki, əsgərin bişirdiyi yeməklə bir qadının, bir ananın hazırladığı yeməyin keyfiyyəti arasında böyük fərq vardır.

Əsgər yeməkxanasında işləyən Səmayə Əliyeva bildirir ki, hər gün əsgərlərimiz üçün milli yeməklər hazırlayırıq. Onun sözlərinə görə, aşbazların hər biri bacarıqlı və təcrübəli qadınlardan seçilib. Qidalanmadan sonra qabların yuyulmasını da mülki şəxslər həyata keçirir, ümumiyyətlə, bu gün Azərbaycan Ordusunun əsgərləri yeməkxana və digər təsərrüfat fəaliyyətindən təcrid olunub, şəxsi heyət yalnız hərbi təlim keçməklə məşğuldur.

Aşpaz Şahsənəm Xasıyeva deyir ki, mövsümə uyğun olaraq milli yeməklər bişiririk. “Küftə, borş, bozbaş, dolma və s. əsgərlərimizin qidalanmasına daxildir. Həmçinin, kişmiş, alma, ərik və s. meyvələrin kompotları da qida rasionunda vardır”.



Əsgərlərin dadlı yeməklərlə təmin olunmasında əziyyəti olan Reyhan Məlikməmmədova, Rəfiqə Hacıyeva, Gülarə Eyvazova və başqaları söhbətlərində əsgər analarına müraciətlə "övladlarınızdan nigaran qalmayın, onların qayğısına lazımınca qalırıq" dedilər...

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Ölkəmizdə şahmatın inkişafına dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir



Yeniyetmələr arasında şahmat olimpiadaları müstəqilliyimizin ilk illərindən keçirilir. Bu, ölkəmizdə şahmata olan diqqət və qayğının bariz nümunəsidir. Komandamız 2 dəfə Avropa çempionu olub, 2 dəfə mükafatçılar sırasına düşüb.

Bu sözləri Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, beynəlxalq dərəcəli hakim Faiq Həsənov Zaqatalada jurnalistlərə müsahibəsində deyib.

Faiq Həsənov bildirib ki, 2016-cı ildə ölkəmizdə çox möhtəşəm idman tədbiri - Dünya Şahmat Olimpiadası keçiriləcək. Dünyanın 180 ölkəsinin ən güclü şahmatçıları Bakıya toplaşacaq. Hazırda ölkəmizdə bu yarışlara çox ciddi hazırlıq işləri görülür.

## Azərbaycan cüdoçuları Avropa çempionatında üç medal qazanıblar




Bolqarıstanın paytaxtı Sofiyada yeniyetmələr arasında cüdo üzrə Avropa çempionatında Azərbaycan millisi üç medal qazanıb.

Cüdoçumuz Şəhanə Hacıyeva (40 kq) qızıl medal uğrunda görüşdə rumıniyalı Lidiya Marini məğlub edərək Avropa çempionu adını qazanıb. Digər cüdoçumuz Zelim Kotsoyev (90 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində yer alıb. İsmayıl İbrahimov (60 kq) isə yarışı bürünc medalla başa vurub.

## Güləşçilərimiz Avropa çempionatında uğurla çıxış ediblər



İstanbulda gənclər arasında güləş üzrə Avropa çempionatında qızlardan ibarət Azərbaycan millisi komanda hesabında bütün rəqiblərindən üstün olub və 58 xalla Avropa çempionu adını qazanıb. Güləşçilərimiz qitə birinciliyini 1 qızıl, 3 gümüş və 2 bürünc medalla başa vurublar. Keçmiş Avropa və dünya çempionu Səbirə Əliyeva yenə ölkəmizə qızıl medal qazandırıb.

Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıların təntənəli qarşılanma mərasimi olub. Azarkeşlər, qaliblərin doğmaları və yaxınları onları gül-çiçək dəstələri ilə qarşılayıblar. Çempionatda Rusiya 50 xalla ikinci, Türkiyə millisi isə 40 xalla üçüncü pillədə qərarlaşıb.

## Gənc güləşçimiz Dağıstanda beynəlxalq turnirdə qızıl medal qazanıb



Dağıstanın Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə ənənəvi beynəlxalq turnir keçirilib.

Turnirdə 65 kiloqram çəki dərəcəsində mübarizə aparan gənc güləşçimiz Coşqun Əzimov həlledici görüşdə Rusiya təmsilçisi Əlibəyhacı Əmiyevə də qalib gəlib və turnirin qızıl medalına sahib olub.

Ruslan Qasımov (57 kq), Ağahüseyn Mustafayev, Qalib Əliyev (hər ikisi 61 kq) və Məhəmmədhacı Muxutov (74 kq) bürünc medal görüşündə uduzaraq turniri 5-ci sırada tamamlayıblar.

## Dağ velosipedi üzrə açıq Azərbaycan çempionatının qalibləri müəyyənləşib



"Bakı-2015" ilk Avropa Oyunlarının MTB üzrə yarışlarını qəbul etmiş Dağ Velosipedi Parkında idmanın bu növü üzrə açıq Azərbaycan çempionatı keçirilib.

Yarışda müxtəlif yaş qrupları üzrə peşəkar idmançılar ilə yanaşı, həvəskar velosipedçilər də mübarizə aparıblar.

Yarışda yeniyetmə və gənclər uzunluğu 2 kilometr olan marşrut boyunca 3, böyüklər isə 6 dövrə vurublar. Nəticədə 15 və 17 yaşadək idmançılar arasında Vüqar Nəsibov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sonrakı iki yeri David Proherkus və Yusif Abdullayev tutublar. Elit, U-23 və gənclər arasında yarışda Aqşin İsmayılov finiş xəttini birinci, Orxan Məmmədov isə ikinci keçib. İlk üçlüyü Musa Mikayılzadə tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici ölkə ordularında

Son illər mikrobiologiya və biotexnologiya, patogen mikroorqanizmlər sahəsində elmi-istehsal potensialına malik olan dövlətlərin sayı kəskin surətdə artmaqdadır. Bu sahədə lider ölkələrin sırasına Çin, Tayvan, Hindistan, Kuba və bir sıra digər dövlətlər də aid edilir. Bioloji və toksiki silahların qadağan edilməsi haqqında qəbul edilmiş konvensiya rəsmi olaraq müdafiə məqsədli tədqiqat işlərinin həyata keçirilməsini qadağan etmir, məxfi bioloji reseptlərin hazırlanması üçün şərait yaradır. ABŞ və bir sıra ölkələrdə insan geninin, quruluşunun dərindən öyrənilməsini nəzərdə tutan elmi-tədqiqat layihələri üzərində işlər həyata keçirilməkdədir. Əldə olunan məlumatlarda insanın onkoloji və genetik xəstəliklərinin müalicəsi yolları axtarılır. İnsan orqanizminin dəqiq öyrənilməsi, incə mexanizmlərin aşkar edilməsi, insanlar arasında etnik irqləri ayırmaq kimi elmi işlər aparılmaqdadır.

Onu da qeyd etmək lazımdır ki, ABŞ-da bir sıra problemlər artmaqdadır. Siyasi məqsədlərini öz xeyirlərinə istifadə etmək istəyənlər də vardır. Onlar Sibir xorası xəstəliyi törədicilərini poçt zərfləri içərisində göndərməklə yayır, terrorizmə qarşı mübarizə məqsədilə bioloji silahdan istifadə imkanını nümayiş etdirirlər.

Aparılan tədqiqatlar, bu işə cəlb olunan şəxslərin və laboratoriya bazalarının genişlənməsi ilə müşayiət edilir. Əgər ciddi mübarizə aparılmazsa, patogen mikroorqanizmlər beynəlxalq terror təşkilatlarının əlinə keçə bilər. Üçüncü dünya ölkələri və tədqiqat işləri ilə məşğul olan şəxslər də vardır ki, onlar müasir biotexnologiyadan və cihazlardan ikili təyinatlı elmi tədqiqat işləri aparırlar.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

*Yeni kitablar*

# Şərəfli ömrün poetik tərənnümü

***Əməkdar mədəniyyət işçisi, hərbçi-şairə Zəminə Xınalının bu günlərdə xalqımızın sərkərdə oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun şərəfli ömür və şanlı döyüş yolundan bəhs edən kitabı işıq üzü görüb.***




İyirmiyə yaxın kitabın müəllifi olan şairə bu dəfə oxucularının diqqətini Azərbaycanın sərkərdə oğlu Həzi Aslanovun Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi əfsanəvi qəhrəmanlıqlara və onun döyüş yoluna yönəldib. "Qəhrəman Həzi" adlanan əsərin poetik misralarında qəhrəmanın şərəfli ömrü insanın gözləri önündən kino lenti kimi keçib gedir.

Poemada görkəmli hərbi şəxsiyyət general Əlağa Şıxlinskinin söylədiyi kəlam elə poetik tutumda, poetik biçimdə oxucuya təqdim edilir ki, əsərin ideya yükünü daha da zənginləşdirir:

*"Vətənin oğulları,*
*Xeyirli yerlər tutsun.*
*Vətənin torpağını,*
*Babəyi tək qorusun.*
*Həzi kimi cəngavər,*
*İgid, mətin oğullar,*
*Ordu sıralarında,*
*Hər kəsə örnək olsun".*

Kitabın ön sözünün müəllifi Şöhrət ordenli xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev şairə Z.Xınalının "Qəhrəman Həzi" poemasını yüksək qiymətləndirib, onun ölməz xalq şairi Məmməd Rahimin əfsanəvi döyüşçü Hüseynbala Əliyevə həsr etdiyi "Leninqrad göylərində" poeması ilə müqayisə edib.

"M.Rahimin poeması əsasən müəllifin lirik ricətlərlə əhatə olunmuş poetik duyğularının nəticəsi kimi şirin və axıcı bir dildə yazılmış əsər idi və o dövr üçün çox dəyərli sayılırdı. Z.Xınalının "Qəhrəman Həzi" poeması isə epik-lirik poemanın bütün cəhətlərinə cavab verən mükəmməl bir tarixi qəhrəmanlıq poemasıdır".

Əsərdəki döyüş epizodlarının təsvirləri tədqiqatçı-jurnalist Musa Bağırovun "Sərkərdənin taleyi" kitabından götürülüb.

Qeyd edək ki, "Qəhrəman Həzi" kitabının təqdimatının sərkərdənin doğulub boya-başa çatdığı ata ocağında - Lənkəran şəhərindəki ev muzeyində keçiriləcəyi nəzərdə tutulub. İnanırıq ki, bu kitab xalqımızın şanlı hərb tarixini öyrənənlər, araşdıranlar üçün qiymətli mənbə olacaq.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 579
Nüsxə 4680